# “Qasımuşağı” xalçası hanadan kəsilib

Xalqımız ən qədim və gözəl ənənələrimizdən olan xalça kəsimini əsrlər boyu xüsusi təntənə ilə, bayram əhvali-ruhiyyəsində qeyd edib, şirinlik paylayıb. Həmin gün doğmalar, yaxın qohumlar, qonşular yığışaraq xeyir-dua veriblər. Yeni xalçanın ərsəyə gətirilməsini dünyaya uşaq gəlməsi kimi sevincli hadisə ilə müqayisə edən əcdadlarımızdan qalan bu maraqlı ənənə Azərbaycan Milli Xalça Muzeyində də yaşadılır.

Qarabağa aid məşhur “Qasımuşağı” xalçasının iyulun 14-də kollektivin iştirakı ilə hanadan kəsimi mərasimi bunun növbəti gözəl örnəklərindən biridir.

Ənənəvi texnologiya şöbəsində xalça rəssamı Şəbnəm Piriyevanın texniki çeşnisi əsasında Yeganə Abasova və Təranə Qasımova tərəfindən toxunan bu yeni əsər Milli Xalça Muzeyinin kolleksiyasında yer alan XX əsrin əvvəllərinə aid “Qasımuşağı” xalçasının replikasıdır.



Xalçanın adı Qarabağın dağlıq hissəsində (indiki Laçın rayonu) yaşayan Qasımuşağı tayfası ilə bağlıdır.

**Lalə**

Mədəniyyət.-2024.- 17 iyul,№(53).- S.3.